# Qələbə qələbəyə, bayram bayrama qovuşub

***“Biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir”. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev bu sözləri 8 Noyabr Zəfər Günündə, Qarabağımızın dilbər guşəsi olan Şuşada, mədəniyyətimizin paytaxtının erməni işğalından azad edilməsinin birinci ildönümündə hərbçilər qarşısındakı çıxışında dilə gətirdi. O hərbçilər ki, bir il öncə dişləri, dırnaqları, qanları, canları ilə 28 il 6 aylıq şuşasızlıq həsrətimizə, nisgilimizə son qoydular. O hərbçilər ki, Şuşa döyüşləri ilə dünya hərb tarixində, hərb elmində yeni səhifə açdılar.***



Bəli, Şuşa uğrunda döyüşlərdə, “Qarabağın tacı”nın azad olunması uğrunda qanlı savaşda yüzlərlə şəhid verdik, çoxlu sayda igidimiz yaralandı, qazi oldu. Şəhidlərimizin müqəddəs ruhları qarşısında ehtiramla baş əyir, yaralı əsgər və zabitlərimizə, qazilərimizə Allahdan şəfa diləyirik!

Bəli, məhz Şuşanın azad olunması ilə düşmənin beli qırıldı, diz çökdürüldü və Şuşamızın murdar yağı tapdağından qurtulması tarixi Qələbəmizin, Zəfərimizin əsas açarı oldu. Belə ki, Şuşanın azad edilməsindən cəmi iki gün sonra– noyabrın 9-dan 10-na keçən gecə 44 günlük İkinci Qarabağ savaşı Zəfərimizlə başa çatdı, 32 illik münaqişəyə son qoyuldu. 10 noyabr 2020-ci il Azəbaycan tarixinə əbədi həkk olundu. Həm gün prezidentlər İlham Əliyev, Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan bəyanat imzaladılar. Bu bəyanat Ermənistanın kapitulyasiya aktı, Azərbaycanın tarixi Qələbəsini rəsmiləşdirən hüquqi sənəd oldu.



8 Noyabr Zəfər Günündə ölkə Prezidenti, qalib sərkərdə, tarixi Qələbə və Zəfərimizin əsas memarı olan İlham Əliyev ən yaxın silahdaşı–Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Şuşada olmağı, oradan növbəti dəfə bədxahlarımıza və dünyaya mesaj göndərməyi daha üstün tutdular.

Müzəffər Ali Baş Komandan hərbçilərlə keçirdiyi görüşündə bildirdi ki, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək, düşmənə öz yerini göstərdi, onları elə vəziyyətə saldı ki, bu vəziyyətdən heç zaman çıxa bilməyəcəklər. Artıq əbədi olaraq məğlub edilmiş xalq damğası ilə yaşayacaqlar.

Qalib sərkərdəmizin də dediyi kimi, hər il may ayında işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada bu şəhərin işğalını bayram edirdi. Amma, bu ilin may ayında Cıdır düzündə “Xarıbülbül” beynəlxalq musiqi festivalı keçirildi, Azərbaycan muğamının sədası aləmə yayıldı. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, buradan Vaqifin və digər görkəmli şairlərimizin şeirləri səsləndi. Artıq bu torpaqlarda, bu səmada yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixən belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax budur reallıq. Bunu qalib sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun köməyi ilə qazanmışıq. Bütün beynəlxalq təzyiqlərə , hədə-qorxulara baxmayaraq, xalqımız yumruq kimi birləşdi, ordumuza arxa-dayaq oldu və biz bu tarixi, şərəfli missiyanı yerinə yetirdik. 44 gün ərzində hər gün irəli gedirdik, geriyə bir addım da olsun atmadıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanından qaçmadı. Bax, budur bizim milli ruhumuz, budur azərbaycançılıq.

“Ermənistan işğal dövründə öz ordusu haqqında, guya, döyüşkən əsgərləri haqqında mifologiya uydururdu: “yenilməz Ermənistan ordusu”. Bəs hanı bu yenilməz ordu, Ermənistan ordusu? Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar”, – deyən Ali Baş Komandan eyni zamanda, qeyd etdi: “Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan etdilər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə də vandallıq ola bilərmi? Bu dərəcədə də nifrət ola bilərmi? Bu dərəcədə də barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq, bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik”.

Bəli, bayram bayrama, sevinc sevincə qarışıb. Zəfər Günündən sonra, 9 noyabr tarixində daha bir qürurlu günümüzü–Dövlət Bayrağı Gününü qeyd etdik. O bayraq ki, onun uğrunda yüzlərlə, minlərlə, on minlərlə can fəda olub. O bayraq ki, “Bir kərə yüksələn bayraq, bir daha enməz!” tarixi kəlamını gerçəkləşdirdi.

103 il öncə ilk müstəqil Azərbaycanımızın ənginliklərində dalğalandırılan ay-ulduzlu, üçrəngli bayrağımız bu gün də başımızın üstündə, Azərbaycanımızın bütün guşələrində, Qarabağımızda dalğalanır. Bayraq hər bir millətin, hər bir xalqın, hər bir dövlətin milli kimliyidir. Bayraq Vətən, torpaq, ana qədər əzizdir, doğmadır. Düşmən qarşısında əyilməyən başlar məhz bayraq önündə əyilir. Biz də üçrəngli bayrağımız qarşısında baş əyir, onunla qürurlanır, fəxr edirik. Xüsusilə də, torpaqlarımızın işğalına son qoyulmasından ötən bir il ərzində üçrəngli bayrağımızı daha ürəklə, daha şəstlə dalğalandırırıq. Zəfərimiz əbədi, bayrağımız daim ucalardan uca olsun!

10 noyabr 2020-ci il isə bizim üçün bir başqa əhəmiyyəti olan tarixi bir gündür. Yuxarıda da qeyd edildiyi kimi, bir il öncə, noyabrın 9-dan 10-na keçən gecə 32 illik qanlı Qarabağ münaqişəsinə son qoyuldu. Tarixi düşmənimizi qarşımızda diz çökdürərək, təslimçilik aktına, kapitulyasiyaya imza atdırdıq. “Dəmir yumruq”la düşmənin başına elə bir zərbə vurduq ki, özünün məğlubiyyətini, bizim isə Qələbəmizi etiraf etməkdən başqa çarəsi qalmadı. Ona görə də 10 noyabr tarixinin həyatımızda, taleyimizdə xüsusi bir yeri var. Və Azərbaycan var olduqca, Azərbaycan xalqı yaşadıqca, 10 noyabr da yaşayacaq, var olacaq, yaddaşlara, hafizələrə əbədiyyən həkk olunacaqdır!

8 , 9 və 10 noyabr! Bir-birindən gözəl günlər, gözəl tarixlər! Bu günləri yazanlar, yaradanlar, tarixə həkk etdirənlər var olsunlar!

Qarabağ Azərbaycandır!

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini, filologiya elmləri doktoru, professor***